

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 220 (23.382)

22 noyabr 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub.

* * *

Dövlətimizin başçısı həmin gün Sumqayıtda "Nizami" kinoteatrının yeni binasının açılışında iştirak edib.

* * *

Noyabrın 21-də Sumqayıtda Muğam Mərkəzi istifadəyə verilib.
Prezident İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olub.

* * *

Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib.
Dövlətimizin başçısı tədbirdə geniş nitq söyləyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



# Yeni Azərbaycan Partiyası: Xalqa və dövlətə xidmət amalı

## Quruculuq işləri Şahbuz rayonunun Türkeş kəndini yeni inkişaf mərhələsinə çıxarıb

1992-ci il noyabrın 21-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında yaradılan Yeni Azərbaycan Partiyası müstəqil dövlətçilik tariximizin əsasını qoymuşdur. Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, ictimai-siyasi sabitliyin, milli həmrəyliyin, güclü və sosialyönümlü iqtisadiyyatın formalaşmasında başlıca siyasi qüvvəyə çevrilmişdir. Ölkəmizdə, eləcə də muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri, iqtisadiyyatın inkişafı və əhalinin rifahının yaxşılaşdırılması Yeni Azərbaycan Partiyasının proqramında nəzərdə tutulan tədbirlərin uğurlu icrasının nəticəsidir.

Noyabrın 21-də – Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümündə Şahbuz rayonunun Türkeş kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Türkeş kənd tam orta məktəbinin yeni binasının açılışı olub





Noyabrın 21-də Türkeş kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.



Məlumat verilmişdir ki, ikimərtəbəli məktəbdə 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, 2 elektron lövhə, kompüter, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı istifadəyə verilmişdir. Məktəbin kitabxana fondunda 1549 kitab vardır. Burada "Oxunması zəruri olan kitablar"dan ibarət guşə yaradılmışdır. Laboratoriyalarda lazımi təcrübə avadanlıqları qoyulmuş, idman zalında, hərbi kabinədə və sinif otaqlarında müasir tədris şəraiti yaradılmışdır. Məktəbdə 8 kompüter quraşdırılmış və internetə qoşulmuşdur.

Elektron lövhəli sinifdə muxtar respublikanın 200-dən artıq məktəbi ilə Heydər Əliyev Muzeyi arasında "Ümummilli lider Heydər Əliyev və Yeni Azərbaycan Partiyası" mövzusunda keçirilən interaktiv dərs izlənilmişdir.

Məktəbin müəllimi Əli Novruzov yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri məktəbin pedaqoji kollektivi ilə görüşmüşdür.



Türkeş kənd tam orta məktəbinin direktoru Bəxtiyar Tarverdiyev çıxış edərək demişdir ki, muxtar respublikanın digər rayonları kimi, Şahbuz rayonunun da qəsəbə və kəndləri günü-gündən abadlaşır və inkişaf edir. Bunun parlaq nümunələrindən biri də məhz bu gün açılışına toplaşdığımız Türkeş kənd tam orta məktəbidir. Yaradılan şərait məktəbdə tədrisin səviyyəsinin artmasına, yüksək nəticələrin əldə olunmasına, bilikli və vətənpərvər gənclərin yetişdirilməsinə imkan verəcəkdir. Bəxtiyar Tarverdiyev təhsilə göstərdiyi hərtərəfli diqqət və qayğıya görə məktəbin kollektivi adından

Ardı 2-ci səhifədə

Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Məktəbin müəllimi Yeganə İbrahimova minnətdarlıq edərək demişdir: “Muxtar respublikanın inkişafında təhsil quruculuğu xüsusi yer tutur. Aparılan kompleks quruculuq işlərinin tərkib hissəsi kimi Türkeş kəndində məktəbin tikilməsi bunu bir daha təsdiq edir. Artıq şagirdlərimiz ən müasir təhsil şəraitinə malik məktəbdə təhsil alacaqlar. Bundan böyük diqqət və qayğı ola bilməz. Yaradılan şərait təhsil işçiləri qarşısında mühüm vəzifələr qoyur və məsuliyyətimizi daha da artırır. Söz veririk ki, müasir tədris şəraitindən səmərəli istifadə edəcək, şagirdlərin təhsili, vətənpərvər və ölkəmizə layiq vətəndaşlar kimi yetişməsi qayğısına qalacağıq”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkeş kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün Türkeş kəndinin həyatında əlamətdar gündür. Aparılan tikinti işlərindən sonra kənddə məktəb, kənd və xidmət mərkəzləri, yol sakinlərin istifadəsinə verilir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Dövlət haradan olursa olsun, nədən olursa olsun kasıb məktəb işinə sərf etməli, müəllim əməyinə qiymət verməlidir”***. Türkeş kəndində görülən işlər, müasir məktəb binasının tikilməsi də dövlət vəsaiti hesabına həyata keçirilmişdir. Həmçinin müəllim əməyi də qiymətləndirilmiş, məktəbin müəllimlərindən biri “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adına layiq görülmüşdür. Bu günə qədər lazımi tədris şəraiti olmayan binada fəaliyyət göstərməsinə baxmayaraq, məktəbdə müəllim fədakarlığı və şagird çalışqanlığı nəticəsində nailiyyətlər qazanılmışdır.

Ali Məclisin Sədri kollektivə təşəkkür edərək demişdir: Türkeş kənd tam orta məktəbinin yeni binası müasir tədrisin tələbləri səviyyəsindədir. Ona görə də məktəbin müəllimləri öz üzərlərində işləməli, yeni innovasiyaları mənimsəməli, onları şagirdlərə öyrətməli, tədris müasir tələblər səviyyəsində qurulmalıdır. Sevindirici haldır ki, məktəbdə bütün fənlər üzrə müəllimlər fəaliyyət göstərir. Son 5 ildə məktəbin məzunlarının ali məktəblərə qəbul olunması həm də müəllimlərin hazırlıq səviyyəsinin göstəricisidir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına və nailiyyətlərin daha da artacağına əminliyini bildirmiş, kollektivə tədrisdə uğurlar arzulamışdır.

Məktəbin həyətində bufet və fərdi qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, yaşıllıq salınmış, müasir suvarma və işıqlandırma sistemi çəkilmişdir.

## Türkeş Kənd Mərkəzi istifadəyə verilib





Noyabrın 21-də Türkeşdə yeni kənd mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra binada yaradılan şəraitlə tanış olmuşdur.



Bildirilmişdir ki, kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, feldşer-mama məntəqəsi, statistika otağı, mədəniyyət evi, həmçinin Yeni Azərbaycan Partiyası Türkeş kənd ərazi ilk təşkilatı, arxiv və 44 yerlik zal yerləşir. Bütün təşkilatlar üçün müasir iş otaqları ayrılmış və lazımi inventarlarla təchiz edilmişdir. Kənd kitabxanasında 4075 kitab vardır.

Yeni Azərbaycan Partiyası Türkeş kənd ərazi ilk təşkilatının sədri Elminə Məmmədova demişdir: “Bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının ildönümüdür. Fəxr edirik ki, ölkəmizdə, muxtar respublikamızda bütün sahələrdə əldə olunan inkişaf Yeni Azərbaycan Partiyasının fəaliyyətinin nəticəsidir. Türkeş kəndində aparılan geniş quruculuq işlərini də Yeni Azərbaycan Partiyası həyata keçirmişdir. Türkeş kənd ərazi ilk təşkilatının 38 üzvü vardır ki, onlardan 10-u gənc, 11-i isə qadındır. Biz gənclər söz veririk ki, partiyamızın ətrafında birləşərək göstərilən etimadı layiqincə doğruldacağıq”.

Türkeş kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Vidadi Həmzəyev kənddə yaşayış üçün bütün tədbirlərin həyata keçirildiyini və məskunlaşmanın artdığını bildirmiş, aparılan kompleks quruculuq işlərinə görə minnətdarlıq etmişdir.

Rabitə evindəki yeni nəsil ATS Türkeş kəndində 41 abonentə xidmət edir. Yeni yaradılmış poçt bölməsində də lazımi şərait vardır.



Binanın birinci mərtəbəsində feldşer-mama məntəqəsi üçün 3 otaq ayrılmışdır. Məntəqəyə ginekoloji müayinə masası, mama müayinə alət dəsti, təcili yardım çantası, qlükometr, tərəzi, boyölçən, soyuducu və digər tibbi avadanlıqlar verilmişdir.

Tibb bacısı Şövkət Əliyeva minnətdarlıq edərək demişdir: “30 ildən artıqdır ki, bu sahədə çalışıram. Lakin bugünkü şəraitimiz heç vaxt olmayıb. Müasir məntəqənin qurulması insanlara qayğının ifadəsidir”.

Ali Məclisin Sədri kənddə hamilə qadınlara patronaj xidmətinin göstərilməsi, uşaqlara peyvəndlərin vaxtında vurulması və səhiyyə maarifinə diqqətin artırılması barədə tapşırıqlar vermişdir.

## Türkeş kənd avtomobil yolu yenidən qurulub






Muxtar respublikada yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir, kənd yollarının yenidən qurulması davam etdirilir.

Noyabrın 21-də Türkeş kənd avtomobil yolu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, 4680 metrlik yola asfalt örtük salınmış, 700 metr kənddaxili yol təmir olunmuşdur. Yolun üzərində 16 su keçidi və 8 selötürücü tikilmiş, 380 metr beton kanal çəkilmiş, kənddəki selovda 640 metr sahilbərkitmə işləri görülmüşdür.

*Ardı 3-cü səhifədə*

# Yeni xidmət mərkəzi fəaliyyətə başlayıb






Həmin gün Türkeşdə yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir. Xidmət mərkəzində bərbərxana, ət satışı yeri və ərzaq mağazası fəaliyyət



göstərir, ailə təsərrüfatlarında istehsal olunan məhsullar satılır. Mərkəzdə 3 sakin işlə təmin olunub.

Sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd sakinlərini təbrik edərək demişdir: Şahbuz rayonunun Türkeş kəndi muxtar respublikanın məhsuldar torpaqlara və geniş ərazilərə malik olan yaşayış məntəqələrindəndir. Ona görə də burada kompleks quruculuq işlərinə başlanıldı, kənd və xidmət mərkəzləri, məktəb, yol tikildi. Aparılan quruculuq işləri kəndi müasir yaşayış məntəqəsinə çevirib. Ucqar yaşayış məntəqəsi olmasına baxmayaraq, Türkeş kəndində internet, rabitə, poçt və tibb xidməti, bir sözlə, insanların rahat yaşaması üçün hər cür şərait var. Bütün bunlar kənddə məskunlaşmanı artıracaqdır. Dövlətimiz bu kəndin inkişafı üçün bütün işləri görməklə kəndin simasını tamamilə dəyişib. Kənddə maldarlıq, heyvandarlıq, arıçılıq inkişaf edir. Yaradılan şərait bu işlərin daha da artırılmasına imkan verəcək. Kəndin içməli su problemi həll olunub. Eyni zamanda qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdıqdan sonra torpaqlardan səmərəli istifadə olunacaq, bol məhsul istehsal ediləcək, yaxşı qazanc götürüləcəkdir. Artıq bu gündən Türkeş kəndində yeni və rahat həyatın təməli qoyulur. Sakinlər də yaradılanlardan səmərəli istifadə etməli, qurulanlar qorunmalı, torpaqlar əkilib becərilməli, kənd muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə verməlidir.



Ali Məclisin Sədri demişdir: 1992-ci ilin noyabrın 21-də Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Müstəqil Azərbaycan dövləti və Yeni Azərbaycan Partiyası ümummilli liderimiz Heydər Əliyevin şah əsərləridir. Bu gün partiyanın ölkəmizdə həyata keçirdiyi işlərin Türkeş kəndinin timsalında nümunəsini görürük. Qürur duyuruq ki, ümummilli liderin yolu ilə gedərək bu inkişafa nail olmuşuq.

Ali Məclisin Sədri Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü münasibətilə sakinləri təbrik etmiş, Türkeş kəndinin muxtar respublikanın abad yaşayış məntəqəsi kimi daha da inkişaf edəcəyinə əminliyini bildirmişdir.

Sakin Təhməz Həmzəyev Ali Məclisin Sədrinə kənd əhalisi adından minnətdarlıq edərək demişdir: "Sizinlə ötən görüşümüzdə yeni bir Türkeş kəndi yaradacağınızı demişdiniz. Artıq bu gün böyük qayğınız nəticəsində həmin sözlər reallığa çevrilib. Əvvəllər dərslər istiliyi və şəraiti olmayan məktəbdə keçirilirdi. Bu gün müasir tələblərə cavab verən yeni məktəbimiz var. Kənd və xidmət mərkəzləri tikilib. Bütün bunlar kəndin inkişafı ilə yanaşı, yeni iş yerlərinin açılmasına da səbəb olub. Yol mədəniyyət, inkişaf deməkdir. Türkeş kənd yolu yenidən qurulub. Kənddə aparılan sahilbərkitmə işləri yaz aylarında sel sularının yaratdığı problemlərin qarşısını alacaqdır. Su həyat, bol məhsul deməkdir. Kəndimizdə qapalı suvarma şəbəkəsi də qurulur. Bu isə əkinəyararlı torpaqlardan səmərəli istifadəyə imkan verəcək. Artıq muxtar respublikanın ərzaq təhlükəsizliyində bizim də kəndin payı olacaq. Enerji, qaz, rabitə sistemləri yenidən qurulub ki, bu da rahat həyatımızın təminatıdır. Sovetlər Birliyinin 70 ildə görmədiyi işlər müstəqil dövlətimiz tərəfindən qısa müddətdə həyata keçirilib. Sovet dövründə şəhər və kənd arasındakı fərqin ortadan götürülməsi ilə bağlı irəli sürülən proqramlar şüar olaraq qaldı, reallaşmadı. Lakin bu gün kəndlərimizdə şəhər həyatı yaradılıb. Rayonumuzun bütün kəndləri abadlaşıb. Artıq Şahbuz rayonu abad rayonlardan birinə və turizm mərkəzinə çevrilib. Aparılan düzgün siyasətin nəticəsidir ki, ötən əsrin 90-cı illərində kənddən köçüb gedənlər indi geri qayıdırlar. İki ailə kənddə məskunlaşıb. Təbii ki, bütün bunlar ulu öndər Heydər Əliyev siyasətinin bəhrələridir. Yaşasın bu siyasəti həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyev! Yaşasın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov! Çünki bu siyasətin davam etməsi bundan sonra da ölkəmizin və xalqımızın xoş gələcəyi, firavan həyatıdır".

* * *

Türkeş kəndində quruculuq işləri ilə yanaşı, abadlıq işləri də görülmüş, 700 metr yeraltı və 1950 metr hava rabitə xətti, 6811 metr izolyasiyalı elektrik xətti çəkilmiş, transformatorlar yenilənmişdir. Həmçinin 780 metr yeni qaz xətti çəkilmiş, kənddəki 2 kəhriz bərpa olunmuş, bərpa olunan bir kəhrizdən kəndə 400 metr içməli su xətti çəkilərək 30 evə su verilmişdir. Bununla yanaşı, yaşıllıqların suvarılması üçün subartezian quyusu qazılmış, 100 metr suvarma xətti təmir olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Çinin ölkəmizdəki səfiri ilə görüşüb



Noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamlamış, onu Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir. Muxtar respublikanın ərazisi, əhalisi və inkişafı barədə məlumat verən Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasındakı əlaqələrə diqqəti çəkmişdir. Ali Məclisin Sədri Naxçıvanda avtomobil istehsalı və yeni texnologiyaların tətbiqi sahəsində Çin şirkətləri ilə əməkdaşlığın olduğunu bildirmiş, Çin Hökuməti tərəfindən muxtar respublikada kənd təsərrüfatının inkişafına göstərilən dəstəyə görə təşəkkür etmişdir.

Xanım Qo Min səmimi qəbula görə minnətdarlıq etmiş, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vətəni Naxçıvanda olmaqdan məmnunluğunu bildirmişdir. Ölkəsinin qədim tarixə və zəngin mədəniyyətə malik olan Naxçıvanla əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdıran səfir mövcud əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

Yurdumuzun qonaqları

## Naxçıvan öz tarixi, mədəniyyəti, müasirliyi və tolerantlığı ilə unikal və cazibədar bir məkandır

*Bu gün Naxçıvan zəngin turizm ehtiyatları və qonaqpərvərliyi ilə bütün dünya turistlərinin sevimli məkanına çevrilib. Bu diyarın qədim tarixini və mədəniyyətini özündə əks etdirən Naxçıvanqala, Nuh Peyğəmbərin türbəsi, xalqımızın məğrurluq zirvəsi Əlincəqala, Qarabağlar Türbə Kompleksi, Gülüstan türbəsi, müqəddəs Əshabi-Kəhf ziyarətgahı və digər tarixi əhəmiyyətli yerləri görmək üçün hər il Naxçıvana yüz minlərlə turist səyahət edir.*



Bu günlərdə qədim diyara tanışlıq məqsədilə gələn kanadalı turist Emily Hansen də onlardan biridir. O, Naxçıvana iki balaca əkiz qızlarını – Melisa və Minanı da gətirib. Mən onlarla "Möminə xatın" adlı kitab-kafedə görüşdüm. Və beləliklə, tur bələdçisi Kamal Yəhyalının vasitəçiliyi ilə Emily Hansen, 4 yaşlı balaca qızlarla maraqlı söhbətimiz başlandı. Öyrəndim ki, Emily Hansen öz ailəsi ilə birgə Bakı şəhərində yaşayır və orada fəaliyyət göstərən Avropa Azərbaycan Məktəbində (EAS) ingilis dili müəllimi işləyir.

Söhbətə başlayan kimi səfər təəssüratlarından ağızdolusu danışan müsahibim dedi ki, ilk dəfədir, Naxçıvana gəlməsinə baxmayaraq, buranı özünə doğma hiss edir. Bu diyarı gəlib görməyi əvvəl Naxçıvanda olmuş kanadalı dostları Tamella və Garry məsləhət görüb. O bildirdi ki, ilk başda haqqında çox eşitdiyim Əlincəqalanı görmək arzusu ilə bura gəlsəm də, dostlarımın təklifi ilə Naxçıvanın bir çox yerlərini gəzdim və təəccübləndim. Bu qənaətə gəldim ki, Naxçıvan unikal və hələ də bir çoxları tərəfindən kəşf edilməmiş bir məkandır.

Sizə gəzdiyim yerlər barədə qısaca məlumat vermək istəyirəm. Onu deyim ki, diyarınızda özünəməxsus memarlıq xüsusiyyəti ilə seçilən tarixi abidələrin bir çoxunu gəzdik. İlk olaraq sizə möhtəşəmliyi ilə diqqətimi cəlb edən və mənim buraya gəlmə səbəbim olan Əlincəqala haqqında danışmaq istəyirəm. Bu qala yerləşdiyi coğrafi mövqeyi, əsrarəngiz görüntüsü və bərpaolunma üslubu ilə məni heyran etdi. Qalanın tarixi isə xüsusilə diqqətimi çəkdi. Öyrəndim ki, uzun illər yadelli işğalçılar, böyük hökmdarlar belə, bu qalanı ala bilməyib, onun uğrunda illərlə mübarizə aparıblar. Bu da təbiidir, qalanı təsadüfən mübarizlik simvolu, məğrurluq rəmzi hesab etmirlər. Amma biz çətin də olsa, uşaqlarla birgə Əlincəqalanı "fəth edə" bildik və ta zirvədən inanılmaz, cazibəli və möhtəşəm mənzərələrin seyrinə daldıq. Burada unudulmaz anlar yaşadıq. Bu, mənim yaddaşımda bu günə qədərki səyahətlərimin ən yaxşı məqamlarından biri kimi qalacaq. Həqiqətən də, bu dünya miqyaslı tarixi-memarlıq abidəsi Azərbaycanın, məncə, hətta bütün Qafqazın "Maçu Piççu"su adlandırılmağa layiq məkandır.

Emily Hansen diqqətini çəkən maraqlı bir faktı da öyrəndiyini qeyd edərək bildirdi ki, bu qalanın vaxtilə yaşayış məskəni olması onu çox təəccübləndirib. Burada yerləşən "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində olan maddi mədəniyyət nümunələri insanların qədim yaşayış tərzi haqqında dolğun təsəvvür yaradır. Əlincəqalanın zirvəsində dalğalanan Azərbaycanın üçrəngli bayrağı qalanın möhtəşəmliyinə daha da rəng qatıb. Bugünkü firavan və bəxtiyar həyatınıza şahidlik edən bu bayraq, həm də Əlincənin xalqınız, dövlətiniz üçün nə qədər qiymətli və vacib bir məkan olduğunu göstərir. Öz sehrli görüntüləri ilə bizi cəzb edən bu yerdən çətin də olsa, ayrıldıq. Və getdik Naxçıvanın digər bir qiymətli tarixi-abidəsi olan Qarabağlar Türbə Kompleksi ilə tanış olmağa. Bu türbə öz gözəl görüntüsü, memarlıq xüsusiyyətləri, texnikası və digər əlamətləri ilə ilk baxışdan diqqətimi cəlb etdi. Mən memar Əcəmi Naxçıvani haqqında eşitmişdim və Möminə xatın türbəsinin həmin memarın əsəri olduğunu bilirdim. Burada öyrəndim ki, abidə yenidən bərpa edilib. Sevindirici hal budur ki, qədimlik, tarixi görkəm qorunub saxlanılıb. Belə tarixi-mədəni abidələri həm bərpa edib, həm də keçmişi qorumaq bir vətənpərvərlik nümunəsidir.



Gəzdiyi yerlərin onda çox yüksək təəssürat yaratdığını vurğulayan kanadalı turist bildirdi ki, bu diyarın hər bir qarışını görmək üçün səbirsizlənirdim. Öyrəndim ki, Naxçıvan təkcə qədim mədəniyyət nümunələri ilə deyil, həm də özünün müalicəvi məkanları ilə tanınır. Həmin yerlərdən biri olan Darıdağ Arsenli Su Müalicəxanasına yollandıq. Burada gördüklərimdən və eşitdiklərimdən deyə bilərəm ki, Darıdağ dünyada çox nadir yerlərdən biridir və bir çox xəstələr Darıdağ arsenli isti suyu vasitəsilə şəfa tapa bilirlər. Bu məlumatdan sonra uşaqlar da bir neçə dəqiqə bu şəfalı suda qaldılar. Öyrəndim ki, Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksi də yaradılacaq. Bu da çox geniş turizm potensialına malik Naxçıvanda digər bir turizm növünün – müalicə turizminin inkişafına yeni imkanlar açacaq. Bu, məni sevindirir. Demişdim axı bu diyar ayaq basdığım andan mənim üçün artıq doğmalaşmışdı. Həmçinin biz Darıdağın ətəklərində dağ keçiləri də gördük. Bu da təbiətə göstərilən qayğının nümunəsidir. Uşaqlar da çox təəccübləndi, maraqlı bir an idi və bu anı fotoyaddaşa köçürdük.

"Naxçıvan, həqiqətən də, sirli-sehrli bir diyardır. Bunu sübut edən digər bir fakt isə şəfaverici xüsusiyyəti ilə tanınan Duzdağıdır. Unikal müalicəvi keyfiyyətli Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olduq. Buranın şəraiti, quruluşu, havası içəriyə daxil olan andan bizi cəlb etdi. Düşünürəm ki, siz dəyəri ölçüyə gəlməz nadir təbii sərvətlərə maliksiniz", – deyən Emily Hansen onu da qeyd etdi ki, Naxçıvan şəhərinin təmizliyi, avtomobil yollarının geniş və səliqəli olması, şəhər və kəndlərin müasir görünüşü isə tamam başqa bir gözəlliyə sahibdir. Naxçıvan rahat, səliqəli, təhlükəsiz və gizli cənnətdir. Bir neçə gündür, qaldığımız "Təbriz" otelində də otaqların təmiz və gözəl, panoramın möhtəşəm, personalın dostcanlı, peşəkar olması məni ən çox heyrətləndirən məqamlardan biri idi.

Mətbəx mədəniyyəti barədə isə onu deyə bilərəm ki, Naxçıvan mətbəxi zəngindir. Buranın çox təbii, qatqısız yeməkləri vardır. İnsanları gülərüz, dürüst, qonaqpərvərdirlər. Naxçıvanın təbiətinin füsunkarlığı insanlarının səmimi və gözəl xarakterinə təzahür edərək bir harmoniya təşkil edib. Naxçıvan tarixi, mədəniyyəti, müasirliyi, tolerantlığı ilə hər cəhətdən çox cazibədardır. Yaxşı ki gəldik və bu diyarı tanıdıq. Övladlarım da buranı çox sevdilər və heç qayıtmaq istəmirlər. Biz Naxçıvana yenidən gələcəyik. Düşünürəm ki, burada hələ kəşf edilməli çox yerlər vardır.

Yurdumuza gələn növbəti əcnəbi turistlə söhbətimizdən bir daha belə qənaətə gəldim ki, Naxçıvan dünyanın ən gözəl məkanı kimi, ən gözəl sözlərə layiqdir. Ona görə də bu gün yenilməz, vüqarlı və firavan diyarımız əcnəbilər tərəfindən o qədər sevilir ki, onlar da dostlarına bura gəlməyi məsləhət görürlər. Fikrimcə, bu günədək muxtar respublikada görülən işlərin ən gözəl nəticələrindən biri də budur.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## "İdman hamı üçün!" şüarı adı altında tədbir

***Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə "İdman hamı üçün!" şüarı adı altında tədbir keçirilib.***



Tədbirin əsas məqsədi gənclər arasında sağlam həyat tərzinin təbliği, narkotik vasitələr və psixotrop maddələrdən istifadəyə qarşı mübarizəyə çağırış, hər bir yaş kateqoriyası üçün bədən tərbiyəsi və idmanın təbliği, uşaq, yeniyetmə və gənclərin cəmiyyətə sağlam inteqrasiyası, olimpiya prinsipləri ilə bağlı məlumatlandırmaq olub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov çıxışında ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən gənclər siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən danışıb. Vurğulayıb ki, muxtar respublikamızda da gənclərin sağlam, vətənpərvər ruhda böyümələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyət həyatının müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu gün Naxçıvanda məşğul əhalinin əksəriyyətinin gənclərdən ibarət olması, onların dövlət orqanlarında irəli vəzifələrə çəkilməsi gənclərə göstərilən diqqət və qayğıdan xəbər verir. Bu tədbirin Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümünə təsadüf etməsi ilə də əlamətdar olduğunu diqqətə çatdıran Azad Cabbarov diyarımızda gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən bəhs edib.

Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov çıxışında bildirib ki, respublikamız artıq dünyada bir idman ölkəsi kimi tanınır. Bunun nəticəsidir ki, 2008-ci ildə Milli Olimpiya Komitəsi Azərbaycan Olimpiya çempionlarına həsr olunmuş sənədli filmlərin çəkilməsi haqqında qərar qəbul edib. Həmin dövrdən başlayaraq bir çox sənədli filmlər istehsal olunub. "Olimpiya Odisseyası" proqramı Avropa Olimpiya Komitəsi və "Olympic Solidarity" təşkilatlarının dəstəyi ilə reallaşdırılıb. Sevindirici haldır ki, "Azərbaycan Olimpiya Odisseyası" adlı layihə ilk olaraq Naxçıvan Muxtar Respublikasında keçirilir. Bu gün həmin layihə çərçivəsində Azərbaycan güləşçisi, yunan-Roma güləşi üzrə 66 kiloqram çəki dərəcəsində 2004-cü il Yay Olimpiya Oyunlarının qızıl medalçısı, yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandasının baş məşqçisi, Azərbaycan Güləş Federasiyasının gənclər üzrə vitse-prezidenti, Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov haqqında filmi izləyəcəyik.

Muxtar respublikada da idmanın sürətlə inkişaf etdirildiyini vurğulayan nazir müavini belə bir tədbirin keçirilməsində göstərdiyi dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirib.

Tədbirdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Məryəm Qafarzadənin çıxışından sonra "Cəngavər Fərid Mansurov" adlı film nümayiş etdirilib.

Sonra Fərid Mansurov çıxış edərək vurğulayıb ki, ölkəmizdə idmanın digər növləri kimi, güləş də sürətlə inkişaf edir və yeniyetmələr arasında təşkil edilən turnirlər onların təcrübələrinin artırılmasında böyük rol oynayır. O, həmçinin Olimpiya zirvəsinə gedən yoldakı çətinlikləri, idman həyatında olan maraqlı anları tədbir iştirakçıları ilə bölüşüb. Fərid Mansurov gənclərə idmanla məşğul olmağı və sağlam həyat tərzi sürməyi tövsiyə edərək zərərli vərdişlərdən uzaq, sağlam vətəndaş kimi formalaşıb Vətənimizin keşiyində durmağı arzu edib.

Olimpiya çempionu qazandığı uğurlarla bağlı tədbir iştirakçılarının maraqlandıran sualları cavablandırıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## "Ədliyyə könüllüləri" iş prosesində iştirak ediblər



"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn vəzifələr icra edilməkdədir. Bu çərçivədə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə birinci kurs tələbələri "Ədliyyə könüllüləri" layihəsi çərçivəsində Ədliyyə Nazirliyi İcra və Probasiya, Naxçıvan Şəhər Qeydiyyat şöbələrində, Naxçıvan şəhər 3 saylı notariat ofisində olublar. Tələbələrə həmin qurumların iş prinsipi və fəaliyyət istiqamətləri barədə məlumat verilib.

**Xəbərlər şöbəsi**

## Yeni texnologiyaların tətbiqinə diqqət artırılır

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 2019-cu ilin oktyabr ayında yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi diqqətdə saxlanılmış, muxtar respublikada 227 yeni telefon nömrəsi istismara verilmişdir.

Ötən ay muxtar respublika ərazisində, ümumilikdə, 4425 metr fiber-optik kabel xətti çəkilmiş, genişzolaqlı ADSL texnologiyası vasitəsilə 807 yeni abunəçi internetlə təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin rəsmi internet səhifəsi hazırlanaraq istifadəyə verilmişdir.

Qeyd olunan dövrdə kadr hazırlığı məsələsi də diqqətdə saxlanılmış, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində təşkil olunan kompüter kursları üzrə təhsil almaq üçün 55 qrup yaradılmışdır. Həmçinin "Naxçıvan" Universitetində *"startup.nakhchivan.az"* internet portalının təqdimatı olmuş, Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalında yenilənmə işləri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Əliyeva Rübabə Fərhad qızının adına olan $307^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 799